## “Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları”nın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİ-ZADƏ**

Bakı şəhəri, 4 iyun 2010-cu il
№ 105

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 4 iyun tarixli, 105 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması**

## QAYDALARI

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə, ~~Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli, 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə”yə,~~ Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli, 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları”na, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq hazırlanmışdır və gəmilərin dövlət qeydiyyatına alınması qaydalarını müəyyən edir.[1]

1.2. Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində və berbout-çarter reyestrində gəmilərin dövlət qeydiyyatı (kiçikhəcmli gəmilər və hərbi gəmilər istisna olmaqla) Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi (bundan sonra – Agentlik)* tərəfindən həyata keçirilir.[2]

1.3. Gəmilərin (kiçikhəcmli gəmilər və hərbi gəmilər istisna olmaqla) dövlət qeydiyyatı (gəminin ilkin və təkrar qeydiyyatı) gəminin inşası, həmin gəmi üzərində mülkiyyət və digər

əşya hüquqlarının əmələ gəlməsi, məhdudlaşdırılması, başqasına keçməsi və bu hüquqlara xitam verilməsi barədə məlumatların reyestrlərə daxil edilməsindən, bu məlumatların yenilənməsindən və ya silinməsindən ibarətdir.

1.4. Gəmilərə, onlara mülkiyyət hüququna və gəmidə digər əşya hüquqlarına, habelə onlara olan hüququn məhdudlaşdırılmasına dair məlumatlar (ipoteka və sair məhdudlaşdırmalar) Dövlət gəmi reyestrində qeydiyyata alınır (1 nömrəli əlavə).

1.5. Xarici dövlətin gəmi reyestrlərində qeydiyyata alınmış gəmilər qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxsə və ya Azərbaycan Respublikasının vətəndaşına berbout-çarter müqaviləsinə əsasən icarəyə verildikdə, berbout-çarter reyestrində qeydiyyata alınır. (2 nömrəli əlavə).

Gəmilərin berbout-çarter reyestrində qeydiyyata alınması gəmilərin Dövlət gəmi reyestrində qeydiyyata alınması ilə eyni qaydada həyata keçirilir və gəmiyə "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında müvəqqəti Şəhadətnamə" verilir (3 nömrəli əlavə).

1.6. Azərbaycan Respublikasının Dövlət gəmi reyestrinin və berbout-çarter reyestrinin tərtib edilməsi və aparılması, onlarda dəyişikliklərin və düzəlişlərin edilməsi, eləcə də həmin reyestrlərdən məlumatın verilməsi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli, 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"na uyğun olaraq həyata keçirilir.

1.7. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

qeydiyyat sıra nömrəsi — gəmiyə mülkiyyət, eləcə də digər əşya hüquqlarının əmələ gəlməsi, dəyişdirilməsi, məhdudlaşdırılması və ya xitam verilməsi, habelə gəmi barədə əqd (alqı-satqı müqaviləsi və s.) bağlanılması ilə əlaqədar Dövlət gəmi reyestrində aparılan qeydlərə verilən nömrə;

gəminin BDT (İMO) nömrəsi — gəmiyə Beynəlxalq Dəniz Təşkilatı tərəfindən verilən nömrə (identifikasiya nömrəsi).

## 2. GƏMİLƏRİN İLKİN DÖVLƏT QEYDİYYATI

2.1. Gəminin ilkin dövlət qeydiyyatına alınması gəmi suya salındığı gündən, eləcə də gəmi barədə əqd (alqı-satqı müqaviləsi və s.) bağlanıldığı və ya Azərbaycan Respublikasının dəniz limanına daxil olduğu gündən 1 (bir) ay müddətində həyata keçirilməlidir.

2.2. Gəmi barədə əqd (alqı-satqı müqaviləsi və s.) bağlanıldıqdan və ya onun üzərində hüquqlar məhdudlaşdırıldıqdan sonra qanunvericilikdə başqa hal nəzərdə tutulmamışdırsa, 5 (beş) iş günü müddətində ərizə ilə *Agentliyə* müraciət edilməlidir.

2.3. Bu Qaydaların müddəalarına uyğun olaraq Dövlət gəmi reyestrində ilkin dövlət qeydiyyatına alınmış gəmiyə qeydiyyat nömrəsi, gəmi mülkiyyətçisinə "Gəmiyə mülkiyyət hüququ haqqında Şəhadətnamə" (4 nömrəli əlavə) və "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə" verilir (5 nömrəli əlavə).

2.4. Dövlət gəmi reyestrində gəminin ilkin qeydiyyatı üçün əsaslar aşağıdakılardır:

2.4.1. yeni gəminin inşa edilməsi;

2.4.2. gəmi barədə qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanmış əqdlər (alqı-satqı müqaviləsi və s.);

2.4.3. qanuni qüvvəyə minmiş məhkəmə qərarları;

2.4.4. gəminin Azərbaycan Respublikasının dəniz limanına daxil olması;

2.4.5. gəminin başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçməsi.

2.5. Gəminin ilkin dövlət qeydiyyatı həmin gəminin mülkiyyətçiləri və ya onun üzərində digər əşya hüquqlarına malik olan şəxslər (gəmi sahibi) tərəfindən verilmiş ərizə əsasında həyata keçirilir.

2.6. Ərizədə onu təqdim edən fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin isə adı və ünvanı göstərilməlidir.

2.7. Hüquq əldə edənin adından başqa şəxs ərizə verdikdə, həmin şəxsin səlahiyyətləri notariat qaydasında təsdiq edilməlidir.

2.8. Gəmilərin ilkin dövlət qeydiyyatına alınması üçün aşağıda göstərilən sənədlər təqdim olunmalıdır:

2.8.1. gəminin mülkiyyətçiləri və ya onun üzərində digər əşya hüquqlarına malik olan şəxslər tərəfindən doldurulmuş ərizə-anket (6 nömrəli əlavə);

2.8.2. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi və surəti (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin şəxsiyyətini təsdiq edən sənəd və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);[3]

2.8.3. hüquqi şəxsin dövlət qeydiyyatını təsdiq edən sənədlərin notariat qaydasında təsdiq edilmiş surəti;

2.8.4. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada gəmiyə mülkiyyət hüququnu və gəmiyə digər əşya hüquqlarını təsdiq edən müvafiq sənəd və ya məhkəmənin qərarı, habelə qeyd edilən sənədlərin notariat qaydasında təsdiq edilmiş surəti;

2.8.5. xarici dövlətlərin dövlət gəmi reyestrindən çıxarılmasını təsdiq edən sənədin əsli və ya apostil edilmiş surəti;

2.8.6. gəminin BDT (İMO) nömrəsinin alınmasına dair sənəd;

~~2.8.7. gəmi radiostansiyasının fəaliyyəti üçün xüsusi icazə;~~[4]

2.8.8. çağırış siqnalının alınmasını təsdiq edən sənəd;

2.8.9. gəminin istismara yararlı olmasına və dəniz nəqliyyatı sahəsində mövcud beynəlxalq konvensiyaların tələblərinə uyğunluğunun yoxlanılmasına dair akt;

2.8.10. ölçü şəhadətnaməsi və notariat qaydasında təsdiq edilmiş surəti;

2.8.11. gəminin təsnifat şəhadətnaməsi və notariat qaydasında təsdiq edilmiş surəti;

~~2.8.12. gəminin üzgüçülüyə yararlılığı haqqında şəhadətnamə və notariat qaydasında təsdiq edilmiş surəti;~~

2.8.13. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.[5]

2.9. Gəminin dövlət qeydiyyatına alınmasına dair ərizə və ona əlavə olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə, 5 (beş) iş günü müddətində reyestrlərdə müvafiq qeydiyyat aparılaraq, ərizəçiyə "Gəmiyə mülkiyyət hüququ haqqında Şəhadətnamə" və ya "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə", eləcə də qeydiyyata alınmış gəmiyə qeydiyyat nömrəsi verilir. Əlavə araşdırma zərurəti yarandıqda, bu müddət 15 (on beş) iş gününədək artırıla bilər.

2.10. Təqdim edilmiş sənədlərdə gəminin qeydiyyata alınması üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, həmin sənədlər ərizəçiyə qaytarılır və çatışmazlıqların aradan qaldırılması üçün əlavə olaraq ərizəçiyə 5 (beş) iş günü müddətində vaxt verilir.

2.11. İmtinaya səbəb olmayan bütün çatışmazlıqlar aradan qaldırılaraq sənədlər yenidən təqdim edildikdə, 5 (beş) iş günü müddətində müvafiq reyestrdə qeydiyyat aparılması təmin edilir.

2.12. Gəminin mülkiyyətçisinin və ya digər sahibinin yazılı müraciəti əsasında onlara "Azərbaycan Respublikasının Dövlət gəmi reyestrindən çıxarış" və ya "Azərbaycan Respublikasının berbout-çarter reyestrindən çıxarış" verilir (7 və 8 nömrəli əlavələr).

## 3. GƏMİLƏRİN TƏKRAR DÖVLƏT QEYDİYYATI

3.1. Hadisə və ya hər hansı digər səbəb nəticəsində gəmi Dövlət gəmi reyestrinə əvvəllər daxil edilmiş məlumatlara uyğun gəlmədikdə, bu Qaydaların 1 nömrəli əlavəsində göstərilmiş məlumatlarda dəyişiklik baş verdikdə, gəmi təkrar qeydiyyata alına bilər.

3.2. Gəminin təkrar dövlət qeydiyyatı təsnifat cəmiyyətləri tərəfindən aparılmış texniki nəzarət *tədbirlərinin nəticəsi* əsasında bu Qaydaların 2-ci bölməsinə uyğun olaraq həyata keçirilir. [6]

## 4. GƏMİLƏRİN AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI ALTINDA ÜZMƏK HÜQUQUNUN DAYANDIRILMASI

Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəminin xarici dövlətin berbout-çarter reyestrində qeydə alınması üçün həmin gəminin Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ berbout-çarter müqaviləsinin qüvvədə olduğu müddət ərzində dayandırılmalı, bu barədə "Dövlət gəmi reyestrindən çıxarış" (7 nömrəli əlavə) verilməli və "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə" geri alınmalıdır.

## 5. GƏMİLƏRİN DÖVLƏT QEYDİYYATINDAN İMTİNA EDİLMƏSİ

5.1. Aşağıda göstərilən hallarda gəminin dövlət qeydiyyatına alınmasından imtina edilə bilər:

5.1.1. təqdim edilən sənədlər, onların forması və məzmunu qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olmadıqda;

5.1.2. gəminin dövlət qeydiyyatına alınması barədə ərizə buna hüququ olmayan şəxs tərəfindən verildikdə;

5.1.3. gəmi dəniz nəqliyyatı sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə uyğun olmadıqda.

## 6. GƏMİLƏRİN DÖVLƏT GƏMİ REYESTRİNDƏN VƏ BERBOUT-ÇARTER REYESTRİNDƏN ÇIXARILMASI

6.1. Gəmilər aşağıdakı hallarda Dövlət gəmi reyestrindən çıxarıla bilər:

6.1.1. mülkiyyətçinin yazılı ərizəsi əsasında;

6.1.2. gəmi çıxdaş edildikdə;

6.1.3. gəmi məhv olduqda və ya itkin düşdükdə;

6.1.4. gəmi konstruksiya cəhətdən məhv olduqda;

6.1.5. yenidənqurma və ya hər hansı digər dəyişikliklər nəticəsində gəmi keyfiyyətini itirdikdə;

6.1.6. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnu itirdikdə;

6.1.7. məhkəmə qərarı əsasında.

6.2. Gəmi Azərbaycan Respublikasının Dövlət gəmi reyestrindən çıxarıldıqda "Gəminin Azərbaycan Respublikasının Dövlət gəmi reyestrindən çıxarılması haqqında arayış" (9 nömrəli əlavə), berbout-çarter reyestrindən çıxarıldıqda isə "Gəminin Azərbaycan Respublikasının berbout-çarter reyestrindən çıxarılması haqqında arayış" verilir (10 nömrəli əlavə).

"Azərbaycan Respublikasında gəmilərin
dövlət qeydiyyatına alınması Qaydaları"na
**1 nömrəli ƏLAVƏ**

**Azərbaycan Respublikasının Dövlət gəmi**
**REYESTRİ**

| | | |
|---|---|---|
| 1. | Gəminin qeydiyyat sıra nömrəsi | |
| 2. | Gəminin qeydiyyata alınma tarixi | |
| 3. | Gəminin adı | |
| 4. | Gəminin əvvəlki adı (əgər varsa) | |
| 5. | Gəminin qeydiyyat limanı | |
| 6. | Gəminin əvvəlki qeydiyyat limanı (əgər varsa) və qeydiyyatın ləğv edilmə tarixi | |
| 7. | Gəminin çağırış siqnalı | |
| 8. | Gəminin BDT identifikasiya nömrəsi | |
| 9. | Gəminin tipi və təyinatı | |
| 10. | Gəminin üzmə rayonu | |
| 11. | Gəminin mülkiyyətçisi barədə məlumat | |
| 11.1. | adı | |
| 11.2. | ünvanı | |
| 11.3. | payı | |
| 11.4. | vətəndaşlığı | |
| 12. | Gəminin sahibi (gəminin mülkiyyətçisi olmadıqda) haqqında məlumat | |
| | adı | ünvanı |
| 13. | Gəmiyə və ya onun hissəsinə mülkiyyət hüququnun yaranmasının əsasları (alqı-satqı müqaviləsi, gəminin inşa edilməsi haqqında müqavilə və s.) | |
| 14. | Gəminin yükgötürmə qabiliyyəti | |

| | | | |
|---|---|---|---|
| 15. | Gəminin tutumu (tonla) | | |
| | ümumi | xalis | |
| 16. | Gəminin əsas ölçüləri (metrlə) | | |
| | tam uzunluğu | tam eni | bortun hündürlüyü |
| 17. | Gəminin əsas texniki xarakteristikaları | | |
| 18. | Gəmiqayırma tərsanəsinin adı, yeri, gəminin inşa edildiyi il | | |
| 19. | Gəminin Dövlət gəmi reyestrindən çıxarılmasının əsası və tarixi | | |
| 20. | Gəmiyə öz bayrağı altında üzməyə icazə verən dövlətin adı | | |
| 21. | Gəminin qeydə alınmış ipotekası haqqında məlumatlar | | |
| 22. | Gəminin xarici dövlətin bayrağı altına müvəqqəti keçirilməsi haqqında qərarı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanının adı və qərarın qəbul edildiyi tarix | | |
| 23. | Gəminin xarici dövlət bayrağı altında müvəqqəti üzmək müddəti | | |
| 24. | Berbout-çarter üzrə gəmini fraxtedənin adı və ünvanı | | |
| 25. | Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnun dayandırılması tarixi | | |
| Qeydlər | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

"Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"na
**2 nömrəli ƏLAVƏ**

**Azərbaycan Respublikasının berbout-çarter**
**REYESTRİ**

| | | | |
|---|---|---|---|
| 1. | Gəminin qeydiyyat sıra nömrəsi | | |
| 2. | Gəminin qeydiyyata alınma tarixi | | |
| 3. | Gəminin adı | | |
| 4. | Gəminin əvvəlki adı (əgər varsa) | | |
| 5. | Gəminin qeydiyyat limanı | | |
| 6. | Gəminin əvvəlki qeydiyyat limanı (əgər varsa) və qeydiyyatın ləğv edilmə tarixi | | |
| 7. | Gəminin çağırış siqnalı | | |
| 8. | Gəminin BDT identifikasiya nömrəsi | | |
| 9. | Gəminin tipi və təyinatı | | |
| 10. | Gəminin üzmə rayonu | | |
| 11. | Gəminin mülkiyyətçisi barədə məlumat | | |
| 11.1. | adı | | |
| 11.2. | ünvanı | | |
| 11.3. | payı | | |
| 11.4. | vətəndaşlığı | | |
| 12. | Gəmini berbout-çarter üzrə fraxtedən haqqında məlumat | | |
| | adı | ünvanı | |
| 13. | Gəmiyə və ya onun hissəsinə mülkiyyət hüququnun yaranmasının əsasları (alqı-satqı müqaviləsi, gəminin inşa edilməsi haqqında müqavilə və s.) | | |
| 14. | Gəminin yükgötürmə qabiliyyəti | | |
| 15. | Gəminin tutumu (tonla) | | |
| | ümumi | xalis | |
| 16. | Gəminin əsas ölçüləri (metrlə) | | |
| | tam uzunluğu | tam eni | bortun hündürlüyü |
| 17. | Gəminin əsas texniki xarakteristikaları | | |
| 18. | Gəmiqayırma tərsanəsinin adı, yeri, gəminin inşa edildiyi il | | |
| 19. | Berbout-çarter müqaviləsinin bağlanma tarixi və onun qüvvədə olma müddəti | | |
| 20. | Gəminin berbout-çarter reyestrindən çıxarılmasının əsası və tarixi | | |

| | | |
|---|---|---|
| 21. | Bayrağın dəyişdirilməsinə qədər gəminin qeydiyyatda olduğu dövlət | |
| Qeydlər | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

"Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"na
**3 nömrəli ƏLAVƏ**

**AZƏRBAYCAN RESPUBLİKASININ *NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ YANINDA DÖVLƏT DƏNİZ AGENTLİYİ*[7]**

**THE STATE MARITIME *AGENCY UNDER THE MINISTRY OF TRANSPORT, COMMUNICATIONS AND HIGH TECHNOLOGIES* OF THE REPUBLIC OF AZERBAIJAN**

**Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında**
**MÜVƏQQƏTİ ŞƏHADƏTNAMƏ**
**(berbout-çarter reyestrində qeydiyyatda olan gəmilərə verilir)**

№ ________

**PROVISIONAL CERTIFICATE**
**of entitlement to fly the flag of the Republic of Azerbaijan**
**(Issued to ships registered in the bareboat — charter registry)**

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tələblərinə müvafiq olaraq ____________________________________________ mülkiyyətində olan və
(gəmi sahibinin adı)
____________________________________________________ tərəfindən
(berbout-çarter üzrə fraxtedənin adı)
berbout-çarter müqaviləsinə əsasən istismar olunan __________________ gəmisinə
(gəminin adı)
Azərbaycan Respublikasının Dövlət bayrağı altında müvəqqəti üzmək hüququ verilmişdir.

In accordance with the requirements of the Merchant Shipping Code of the Republic of Azerbaijan ____________________________________________

(ship's name)

owned by ____________________________________________

(owner's name)

Bareboat chartered by ____________________________________

(bareboat charterer's name)

has been temporarily entitled to fly the flag of the Republic of Azerbaijan

Azərbaycan Respublikasının berbout-çarter reyestrində "___" _______ 20___ il tarixində _______________ nömrəsi ilə qeydə alınmış ______________________________

(gəminin adı)

gəmisinə dair məlumatlar:

The ship ______________________________ registered in the bareboat-

(ship's name)

charter registry of the Republic of Azerbaijan, under registration No ________________ on "___" ___________ 20___ has been described as follows:

1. BDT nömrəsi ____________________________________________
IMO number

2. Gəminin tipi ____________________________________________
Ship's type

3. Çağırış siqnalı __________________________________________
Call sign

4. İnşa tarixi və yeri ________________________________________
Date and place of construction

5. Gövdənin əsas materialı ____________________________________
Main material of hull

| | | |
|---|---|---|
| 6. Uzunluğu<br>Length | ____________________ | m |
| 7. Eni<br>Breadth | ____________________ | m |
| 8. Bortun hündürlüyü<br>Depth | ____________________ | m |
| 9. Tutumu<br>Tonnage | ümumi ____________<br>gross | xalis _________<br>net |
| 10. Mühərrikin növü, sayı və gücü<br>Type, number and output of engines | ______________________________________ | |

Bu Şəhadətnamə gəmidə saxlanılmalıdır. Gəmi Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnu itirdikdə və ya onun berbout-çarter reyestrindən çıxarılması ilə nəticələnə bilən hər hansı bir fövqəladə hadisə baş verdikdə, bu Şəhadətnamə onu verən təşkilata qaytarılmalıdır.

This Certificate is to be kept on board. If the ship mentioned in this certificate deprives her right to fly the flag of the Republic of Azerbaijan or in the event of any emergencies leading to deletion of the vessel from the bareboat-charter registry, this Certificate is to be returned to the issuing Authority.

| | |
|---|---|
| Verildiyi yer ______________________<br>Issued at | Verilmə tarixi "___" _________ 20__ il/year<br>Issued on |

**Dövlət Dəniz** ***Agentliyinin direktoru***
***Director of the State Maritime Agency***

M.Y.
Seal

"Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"na
**4 nömrəli ƏLAVƏ**

| | |
|---|---|
| **AZƏRBAYCAN RESPUBLİKASININ** ***NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ YANINDA DÖVLƏT DƏNİZ AGENTLİYİ***[8] | **THE STATE MARITIME** ***AGENCY UNDER THE MINISTRY OF TRANSPORT, COMMUNICATIONS AND HIGH TECHNOLOGIES*** **OF THE REPUBLIC OF AZERBAIJAN** |

**Gəmiyə mülkiyyət hüququ haqqında**
**ŞƏHADƏTNAMƏ**

**№_______**

**Ownership Certificate**

Bununla təsdiq edilir ki, ________________________________________ gəmisi Azərbaycan
(gəminin adı)
Respublikasının Dövlət gəmi reyestrində ___________________________________________
(mülkiyyətçinin adı)
mülkiyyəti kimi qeydə alınmışdır.
This is certified that ______________________________________________________________
(ship's name)
has been registered in the State ship's registry of the Republic of Azerbaijan as a property of ___________________________________________________________________

(name of proprietor)

Qeydiyyat nömrəsi ______________ Qeydiyyat tarixi "___" __________ 20__ il/year
Registration number Date of registration

Yuxarıda adı çəkilən gəmiyə aid Dövlət gəmi reyestrində aşağıdakılar qeydə alınmışdır:
The abovementioned ship has been described in the State Ship's Registry as follows:

1. BDT nömrəsi ____________________________________________________________
IMO number

2. Gəminin tipi ____________________________________________________________
Ship's type

3. Çağırış siqnalı _________________________________________________________
Call sign

4. İnşa tarixi və yeri ______________________________________________________
Date and place of construction

5. Gövdənin əsas materialı
Main material of hull

6. Uzunluğu ____________________ m
Length

7. Eni ____________________ m
Breadth

8. Bortun hündürlüyü ____________________ m
Depth

9. Tutumu ümumi ____________ xalis _________
Tonnage gross net

Tutum şəhadətnaməsi ____________________________________
Tonnage certificate

Verilmə tarixi "___" _________ 20___ il/year Nömrəsi __________________________
Date of issue Number

10. Mühərrikin növü, sayı və gücü _____________________________________________
Type, number and output of engines

11. Gəmi əvvəllər başqa bayraq altında üzmüşsə, əvvəlki adı və qeydiyyat limanı
Previous port of registry and previous name of the ship (if any) under a foreign flag

______________________________________________________________________________

Bu Şəhadətnamə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən _______
______________________________________________________________________________

(mülkiyyətçinin adı)

_________________________________________________________ gəmisinə mülkiyyət

(gəminin adı)

hüququnu təsdiq edir.

According to the legislation of the Republic of Azerbaijan this certificate constitutes complete evidence of the proprietary right of ___________________________________

(name of proprietor)

on ________________________________________________________________________

(ship's name)

Bu Şəhadətnamə gəmidə saxlanılmalıdır. Gəmi Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnu itirdikdə və ya onun Dövlət gəmi reyestrindən çıxarılması ilə nəticələnə bilən hər hansı bir fövqəladə hadisə baş verdikdə, bu Şəhadətnamə onu verən təşkilata qaytarılmalıdır.

This Certificate is to be kept on board. If the ship mentioned in this certificate deprives her right to fly the flag of the Republic of Azerbaijan or in the event of any emergencies leading to deletion of the vessel from the State ship's registry, this Certificate is to be returned to the issuing Authority.

| | |
|---|---|
| Verildiyi yer _____________________ | Verilmə tarixi "___" ________ 20___ il/year |
| Issued at | Issued on |

**Dövlət Dəniz** ***Agentliyinin direktoru***
***Director of the State Maritime Agency***

M.Y.
Seal

"Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"na
**5 nömrəli ƏLAVƏ**

| | |
|---|---|
| **AZƏRBAYCAN RESPUBLİKASININ** ***NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ YANINDA DÖVLƏT DƏNİZ AGENTLİYİ***[9] | **THE STATE MARITIME** ***AGENCY UNDER THE MINISTRY OF TRANSPORT, COMMUNICATIONS AND HIGH TECHNOLOGIES*** **OF THE REPUBLIC OF AZERBAIJAN** |

**Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında**
**ŞƏHADƏTNAMƏ**

**№_______**

**CERTIFICATE**
**of entitlement to fly the flag of the Republic of Azerbaijan**

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tələblərinə müvafiq olaraq
___________________________________________ mülkiyyətində olan
(gəmi sahibinin adı)
__________________________________________________________________ gəmisinə
(gəminin adı)
Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzmək hüququ verilmişdir.
In accordance with the requirements of the Merchant Shipping Code of
the Republic of Azerbaijan __________________________________________________________________
(ship's name)
owned by __________________________________________________________________
(owner's name)
has been entitled to fly the flag of the Republic of Azerbaijan.
Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində "___" __________ 20___ il tarixində
____________ nömrəsi ilə qeydə alınmış __________________________
__________________________________________________ gəmisinə dair məlumatlar:
(gəminin adı)
The ship ________________________________________________ registered in the State
(ship's name)
ship's registry of the Republic of Azerbaijan, under registration No ______________ on
"___" _________________ 20___ has been described as follows:
1. BDT nömrəsi ______________________________________________________________
IMO number
2. Gəminin tipi ______________________________________________________________
Ship's type
3. Çağırış siqnalı __________________________________________________________
Call sign
4. İnşa tarixi və yeri _______________________________________________________
Date and place of construction
5. Gövdənin əsas materialı
Main material of hull

| | | |
|---|---|---|
| 6. Uzunluğu<br>Length | _____________________ | m |
| 7. Eni<br>Breadth | _____________________ | m |
| 8. Bortun hündürlüyü<br>Depth | _____________________ | m |
| 9. Tutumu<br>Tonnage | ümumi _____________<br>gross | xalis _________<br>net |
| 10. Mühərrikin növü, sayı və gücü<br>Type, number and output of engines | _______________________________________ | |

Bu Şəhadətnamə gəmidə saxlanılmalıdır. Gəmi Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnu itirdikdə və ya onun Dövlət gəmi reyestrindən çıxarılması ilə nəticələnə bilən hər hansı bir fövqəladə hadisə baş verdikdə, bu Şəhadətnamə onu verən təşkilata qaytarılmalıdır.

This Certificate is to be kept on board. If the ship mentioned in this certificate deprives her right to fly the flag of the Republic of Azerbaijan or in the event of any emergencies leading to deletion of the vessel from the state ship's registry, this Certificate is to be returned to the issuing Authority.

Verildiyi yer __________________________
Issued at

Verilmə tarixi “___” ______ 20__ il/year Etibarlıdır “___” ________ 20___ il/year
Issued on Date of expiry

**Dövlət Dəniz** ***Agentliyinin direktoru***
***Director of the State Maritime Agency***

M.Y.
Seal

“Azərbaycan Respublikasında gəmilərin
dövlət qeydiyyatına alınması Qaydaları”na
**6 nömrəli ƏLAVƏ**

**Azərbaycan Respublikasının** ***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi***[10]

**Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində gəminin qeydiyyata alınmasına dair**

**ƏRİZƏ-ANKET**

| **1.** | Gəminin inşa edildiyi vaxtdan daşıdığı adlar | Adı | Verildiyi tarix | Dəyişdirildiyi tarix |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| **2.** | Verilməsi istənilən yeni ad | | | | |
| **3.** | Gəminin inşa edildiyi vaxtdan qeydiyyatda olduğu limanlar | Limanlar | Qeydiyyata alınma tarixi | Qeydiyyatdan çıxarılma tarixi | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| **4.** | Hal-hazırda qeydiyyata alınması istənilən liman | | | | |
| **5.** | Gəminin BDT nömrəsi ______________________ verilmə tarixi _______________ | | | | |
| **6.** | Gəminin beynəlxalq çağırış siqnalı _____________________________ verilmə tarixi __________________ | | | | |
| **7.** | Gəminin üzmə rayonu | | | | |
| **8.** | Gəminin təsnifat cəmiyyəti haqqında məlumat | | | | |
| **8.1.** | Adı | | | | |
| **8.2.** | Kodu | | | | |
| **8.3.** | Qeydiyyat nömrəsi | | | | |
| **8.4.** | Təsnifat nişanının işarəsi | | | | |
| **8.5.** | Təsnifat şəhadətnaməsi | verilmə tarixi | etibarlılıq tarixi | | |
| **9.** | Gəminin ölçüləri | tam uzunluğu | | metr | |
| | | perpendikulyarlararası uzunluğu | | metr | |
| | | eni | | metr | |
| | | bortun hündürlüyü | | metr | |
| **10.** | Gəminin | ümumi tutumu | | ton | |
| | | xalis tutumu | | ton | |
| | | dedveyti | | ton | |
| **11.** | Gəminin yük nişanına görə suya oturumu | | | | |
| | Yay | | Qış | | |
| **11.1.** | Boş | metr | | metr | |
| **11.2.** | Yüksüz | metr | | metr | |
| **11.3.** | Ballastda | metr | | metr | |
| **11.4.** | Yüklü | metr | | metr | |
| **12.** | Gəminin şirin suya nəzərən suya oturumu ____________________________ metr | | | | |
| **13.** | Gəminin inşasına dair məlumatlar | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **13.1.** | Kilin qoyulma tarixi | | | | | |
| **13.2.** | İnşa (istismara verilmə) tarixi | | | | | |
| **13.3.** | İnşa nömrəsi | | | | | |
| **13.4.** | İnşa təsnifat nişanı | | | | | |
| **13.5.** | İnşa edən tərsanənin adı | | | | | |
| **13.6.** | İnşa edən müəssisənin adı | | | | | |
| **13.7.** | Ölkə / Şəhər | | | | | |
| **14.** | Gövdənin materialı | polad | * | | | |
| | | alüminium | * | | | |
| | | plastik | * | | | |
| | | digər | * ________________ *(göstərin)* | | | |
| **15.** | Gəmi göyərtələrinin sayı və adları | 1. | | | | |
| | | 2. | | | | |
| | | 3. | | | | |
| | | 4. | | | | |
| | | 5. | | | | |
| **16.** | Gəminin baş mühərriki(ləri) haqqında məlumat | sayı və gücü | | | | |
| | | markası | | | | |
| | | nömrəsi | | | | |
| | | istehsal tarixi | | | | |
| | | istehsalçı | | | | |
| | | dirsəkli val sayı | | | | |
| | | növü | dizel | * | | |
| | | | buxar | * | | |
